# AĞAMİR CAVADIN ŞEİRİ HAQQINDA



**Şəddat CƏFƏROV**

*"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü*

Öz düşüncələrini poetik şəkildə ifadə etmək çətin və həm də gərgin psixoloji problemdir. Xüsusilə, portret şeirlərində bu çətinlik daha çox görünür. Əlbəttə, hər bir şairin özünüifadə imkanları var. Bu ifadə imkanları şairin dünyagörüşündən, onun ilhamından, xüsusilə, istedadından çox asılıdır. Bunu mən həyatım boyu yaradıcılığını müşahidə edə bildiyim, ünsiyyətdə olduğum şairlərin qələm məhsullarında da sezmişəm.

Bəri başdan onu deyim ki, ünsiyyətdə olduğum şairlərin çox böyük əksəriyyəti ilə elə ilk tanışlıqdan sonra aramızda dostluq münasibəti yaranıb. Elə söz adamları, şairlər də olub ki, hələ şəxsən tanış olmamışdan əvvəl ünvanıma poetik məktublar göndəriblər. Təbiidir ki, bundan sonra ünsiyyətimiz daha yaxın olub, daha isti olub. Həmid Abbas, Zülfüqar Qodmanlı, Ağəddin Mansurzadə, Maşallah Məftun, Fəxrəddin Ziya, Cavad Zeynal, Elşad Səfərli... indi hamısını sadalaya bilmədiyim şairlərin poetik məktublarını, portret şeirlərini çox böyük istəklə hifz etmişəm, qoruyub saxlamışam. Ayrı-ayrı qəzet səhifələrində, jurnallarda dərc olunmuş bu poetik örnəkləri haqqında yazan müəlliflərə təqdim etmişəm. Yazıçı Fatma Həsənqızı, yazıçı-publisist Sevda Əlibəyli, Ağəddin Mansurzadə, Qəşəm İsabəyli, Əli Rza Xələfli və Ceyhun Zallı, eləcə də digərlərinin kitablarında bu şeirlər bir araya gəlib. Ancaq Əli Rza Xələfli və Ceyhun Zallının "Böyük portretin işığında" kitabının səhifələrində bu şeirlərin təhlillərinə də ayrıca yer verilib.

Onu da deyim ki, hələ də ünvanıma portret şeirlər, poetik məktublar yazılmaqda davam edir. Son vaxtlar Yaqub Söz adlı müəllifin "Yaşına yaraşan kişi" şeiri də mənim diqqətimi cəlb etdi. Lap təzəlikcə bizim cənub bölgəsində məşhur olan, ölkəmizdə yaxşı tanınan ustad şair Ağamir Cavadın da yeni bir portret şeirini almışam.

Ağamir Cavad söz mülkündə öz poeziyası ilə yerini tutmuş, haqqını tanımış şairdir. O, müşahidə imkanlarına görə, düşüncələrini poetik ifadə tərzinə görə kifayət qədər orijinal şairdir. Özü də həmişə mənə elə gəlib ki, bu şair təbiət etibarı ilə yaşadığı ömürdən daha yaşlıdır. Onun həyat baxışında dərin bir müdriklik, ağsaqqallıq təmkini var. Bunu dostum şair-publisist Əli Rza Xələfli də yaxşı müşahidə edib. Bu günlərdə "Kredo" qəzetində (№30 (1060) 18 avqust 2021-ci il) Ağamir Cavadın "Sevgi gülləri" adlı portret essesində də qanadlı duyğularla ifadə edib: "Öz yaşının üstündə görmədiyim şairlərdən biri də Ağamir Cavaddır.

Bilmirəm, öz yaşının üstündə görünə bilməmək şairin üstün tərəfidir, yoxsa... Amma hər halda Azərbaycan poeziyasının görkəmli simaları olaraq bu şairlər söz sənətinə vurduqları naxışlarla bir qədimlik missiyası daşıyırlar. O qədimliyi ki, orada bütövlükdə bir vətənin o başından bu başınacan ağrılarının hamısı bir karvana yüklənib. Həmin o qədimlikdən üzü bəri, günümüzə sarı yol gəlir".

Göründüyü kimi, şair Ağamir Cavadın poetik imkanlarını həyatı dərindən müşahidə imkanları ilə bağlayır. O da şairi yaşından daha artıq ömür sahibi kimi görür. Məncə, bu, şair üçün çox uca bir keyfiyyətdir. Axı şair sıradan adamlardan deyil. Dünyanın təzadlarını müşahidə etmək imkanlarına malik olan düşüncə adamıdır. Yalan-doğru, xeyir-şər, yaxşı-yaman, ağqara... bu motivlər həyatda bir-biri ilə çarpışan tərəflərdir. Şair də bunları gördüyü üçün, hətta bəzən yalanın doğruya... qalib gəldiyini də görür. Bu da istər-istəməz onun həyatında dərin iz buraxır. Belə olan halda şair mənəvi ağrıların içində daşıya-daşıya yaşının fövqünə qalxır. Sanki bir ili bir neçə il kimi yaşayır. Bəs Ağamir Cavad haqqında düşüncələrini dostum Əli Rza Xələfli necədavam etdirir? Oxucular üçün maraqlı olacağını nəzərə alıb bir daha həmin düşüncələrə müraciət edirəm: "Bəs bu sırada Ağamir Cavadın qədimliyi harada, nədə və necə görünür? Əvvəla, Ağamir Cavad mənim və sırasını göstərdiyim sənətkarların arasında öz yerini təmkinli, bir qədər ağır, dəvə ləngərli sözü ilə tuta bilib. Coşğunluq da, ehtiras da, emosiyaların havalanması da şairə xas keyfiyyətdir. Ağamir Cavadın yaradıcılığı da bu xarakterik cizgilərdən kənarda deyil. Ancaq onun yaradıcılığının elə bir mərhələsi gəlib ki, burada sanki çahargah muğamının ləngərini müşahidə etmək oxucuya çətin deyil. Ən emosional ruhi duyğularını belə sakit və təmkinli hisslərlə etiraf edir". Beləliklə, Ağamir Cavad dövrün bütün təzadlarını görə bilən şair kimi yazdıqlarında da həyat həqiqətlərinə sadiq qalır. Onun zəngin yaradıcılığı həyatımızın ən müxtəlif tərəflərini işıqlandıra bilir.

Mənə elə gəlir ki, Ağamir Cavadın şeirləri yaşadığı hisslərin etirafıdır. Lap elə mənim obrazıma müraciət edibsə, bunda da bir etiraf görürəm. Etiraf insanın mənəvi mühitində olanın özü tərəfindən təsdiqidir.

Beləliklə, oxucularıma Ağamir Cavad tərəfindən çox böyük ehtiramla, ən başlıcası sevgi və hörmətlə, ***"Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərova"*** epiqrafı ilə yazılmış "ÖMRÜNÜ XALQINA PAYLAYAN ADAM" şeirini təqdim edirəm:

Hər insan Allahın bir əsəridir,
Hər kəsi tərifə gəlməyir dilim.
Səni tərif etsəm, vallah, yeridir,
Gəl məni qınama, Şəddat müəllim.
Zaman qar ələmiş qara telinə,
Gözünü müqəddəs göylərə dikdin.
Qələmi fırçatək alıb əlinə,
Sözünlə zamanın şəklini çəkdin.
Zəhmətlə kükrəyir eşqinin təbi,
İşinə sevginlə ilhamın coşar.
Hər sənət sahibi, hər söz sahibi
Adına, sanına bir dastan qoşar.
Saf insan dünyanın üz yaraşığı,
Haqqın sizin kimi ozanı vardır.
İnsan da işıqdır - Tanrı işığı,
Hər kəsin öz ölçü, mizanı vardır.
Qətiyyət güc olur haqqın səsində,
Zaman hər insana göstərir yerin.
Haqqı yox nadanlar əhatəsində
Öz nur çırağını söndürənlərin.
Eşqin mehrabının azanı dəqiq,
Qəlbi təmizlərin üzü nur yayar.
Tanrının ölçüsü, mizanı dəqiq,
Dünyada hər kəsin işıq payı var.
Min dərdə, əzaba gətirmisən tab,



Yaxşı əməllərin könül varıdır.
Qəlbinin oduyla çıxan hər kitab
Ömrünün ən gözəl akkordlarıdır.
Sabaha ümidlə açılır hər gün,
Eşqinin işığı zülməti yarar.
Müdrik məsləhətin, xoş təbəssümün
Səni zirvələrə yaxınlaşdırar.
Böyüklük ən ali rütbədi, çindi,
Böyüklük olubdur dövlətin, varın.
Ürəyi ən böyük eşq ilə dinir
Böyük məqsədlərlə yaşayanların.
Böyükdür, alidir eşqin, amalın,
Bilirsən, seçirsən sözlərin xasın.
Böyük gələcəyə açıqdır yolun,
Adından böyüklük əskik olmasın.
İbrət məktəbidir gözəl həyatın,
Şərlə mübarizə olmayır asan.
Dostluğa nur yayır mənəviyyatın,
Kamil bir insantək etibarlısan.
Tapındı qəlbinə bir eşq adlı din,
Tanrıdan ən ali mükafat aldın.
Həyata sevgindir sənətə sevgin,
Bu ali eşqinlə daim ucaldın.
Ali duyğularla doldun həmişə,
Ümidin gözəllik taxtında gəldi.
Səbirli, təmkinli oldun həmişə,
"Səbir etdin, diləyin vaxtında gəldi."
Sadə görkəmində əzəmət, qürur,
Yıxılır ayağı boşa düşənlər.
Günahkar dostlara cavabın budur:
"Xoşbəxtdir günahın başa düşənlər."
Eşqinlə dağıtdın dumanı, çəni,
Elminə eşq qatıb odunda yandın.
Dərk edib həyatın gözəlliyini
Üzündə təbəssüm, işıq qazandın.
Keçmişən içindən qaranın, ağın,
Yaxşını-yamanı yaxşı görürsən.
Birləşib işinlə xeyirxahlığın,
Xalqına daha çox fayda verirsən.
Hər sözün ilahi haqqa bürünür,
İdrakın, düşüncən dərindən-dərin.
Boyu boylulardan uca görünür
İnsanlıq məktəbi bitirənlərin.
Yetir inamıyla hər arzu-kama,
Qəlbində imanı haylayan adam.
Layiqdir hər hörmət, hər ehtirama
Ömrünü xalqına paylayan adam.

Hər bir insan təbiət etibarı ilə xeyirxahdır. Amma hər kəsin xeyirxahlıq etmək imkanı olmur. Həyatım boyu çətinliyə düşmüş, imkanları məhdud olan hər kəsə düzgün yol göstərməyə çalışmışam. İstəmişəm ki, insanlar öz varlıqlarındakı enerjini bərpa edə bilsinlər, həyat inamları ölməsin. Görünür Ağamir Cavad da mənim təbiətim haqqında kifayət qədər məlumatlı olub. O, mənim xeyirxahlıq üçün çalışmalarımı "Ömrünü xalqına paylayan adam" epiteti ilə əks etdirib. Bu, əlbəttə, məndə xüsusi bir məmnunluq doğrurur.

Artıq yuxarıda qeyd etdiyim kimi Ağamir Cavad kifayət qədər məşhur şairdir. Onun haqqında açıq məlumat mənbələrində geniş bilgilər verilir. Yaradıcılığının ən üstün tərəfləri dəqiqliklə göstərilir.

Mən də istərdim ki, haqqımda portret poema yazmış Ağamir Cavadı öz oxucularıma və "Kredo"nun təəssübkeşi olan insanlara daha ətraflı tanıdım. Məlumat xronika mənbələrində onun haqqında yazılır: Şairin yaşam yolu, klassik təbircə desək, tərcümeyihalı da oxucu marağında olur. Onun kimlik məziyyətlərini, başqa sözlə, poeziyası ilə şəxsiyyətinin ayrılmazlığını göstərən faktları da oxucu marağına uyğun təqdim etməyi vacib bildik: Müasir Azərbaycan şeirinin istedadlı nümayəndələrindən olan Ağamir Cavad (Cavadov Ağamir Sadıx oğlu) 1963-cü il fevral ayının 5-də Lənkəran rayonunun Veravul kəndində anadan olub. 1980-ci ildən dövri mətbuatda elmi, bədii və publisistik yazıları ilə çıxış edir. Lənkəran Dövlət Universitetinin humanitar elmlər fakültəsini bitirib. Respublika Yaradıcı Gənclər festivalının iştirakçısı olub (1990). "Füzuli" pyesi Lənkəran Dövlət Dram teatrında tamaşaya qoyulub (1995). "Çəkdiyim şəkillərin ruhu" (2002), "Eşq işığı" (2007), "İşıq adam" (2009), "Yanmış budaq üstə oxuyan bülbül" (2013) kitablarının müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998), "Qızıl qələm" media mükafatı laureatıdır (2013). Prezident mükafatçısıdır (2017). AYB Lənkəran bölməsinin ədəbi məsləhətçisi, "Söz" jurnalının redaktor müavinidir. Pedaqoji sahədə fəaliyyət göstərir.

Bu bir parça tərcümeyi-hal qeydləri xronikadan olduğu kimi götürülüb. Şairin öz dəst-xətti ilə yazıldığı üçün gələcəkdə fikir ayrılığı yaratmayacağına inanmaq olar.

Zənnimcə, Ağamir Cavad haqqında daha geniş yazmaq olardı, ancaq onun portret poeması və bu məlumatlar da Ağamir Cavadın poetik aləmi haqqında kifayət qədər təsəvvür yaradır.

Düşünürəm ki, elə şairlər də ömrünü xalqına paylayır. Biri də elə Ağamir Cavad.

***01.10.2021***